**NƏRMİN ƏHMƏDOVA**
**ADU**
**Rəşid Behbudov 134**
**E-mail: narmin324@mail.ru**

# QRAMMATİKA HAQQINDA

**Xülasə**

İnsan bir çox nəzəriyyələrdə əsas tədqiqat obyekti hesab edilir. Antroposentrizm nəzəriyyəsi də insanı kainatın aparıcı qüvvəsi, hər bir şeyin başlanğıcı və üzərində heç bir digər varlığın hökmü olmayan obyekt kimi öyrənir. Bu dini-fəlsəfi düşüncə tərzi İntibah dövründə formalaşmış və nəinki Avropa, eyni zamanda Asiya təfəkkürünün formalaşmasında əsas vasitə hesab edilir.

İnsanı digər canlılardan fərqləndirən onun danışa bilmək qabiliyyətidir. Necə deyərlər: Ağlı, müdrikliyi olan fərd insan hesab edilir. Bu zaman diqqəti cəlb edən insanın işlətdiyi cümlələrin qrammatik quruluşudur və onların koqnitiv əsaslı olmasıdır. F.Palmer yazır: "Dilin insana məxsus olan xüsusiyyətini belə əhəmiyyətli edən şey onun qrammatikası və konseptidir".

Bəzi dillərin qrammatikası vardır, bəzilərinin isə yoxdur. Məsələn, çin dilinin qrammatikası yoxdur. İngilis dili isə mükəmməl qrammatikaya malikdir. Məlumdur ki, ingilis dilində hər bir sözün fərqli forması vardır, çin dilində isə bütün sözlər eyni formaya malikdir. Latın dilində *amo* ("I love" - "Mən sevirəm") cümləsinin yüz fərqli forması vardır. İngilis dilində işlətdiyimiz *to love* feilinin isə dörd forması vardır: *love, loves, loved, loving*. Yaxud: *take, takes, took, taken, taking* və s. Qrammatikada müşahidə olunan fərqliliklər dilin morfologiyası və sintaksisi tərəfindən öyrənilir.

**Açar sözlər:** qrammatika, incəsənət, yazı, qədim, yunan, Latın

Hər hansı bir konseptin istər tarixi inkişafını, istərsə də quruluşunu təhlil etməzdən əvvəl həmin konseptin nə olduğunu, nəyi ifadə etdiyini bilmək lazımdır. Odur ki, biz də "Qrammatika nədir?" sualının cavabını axtaraq.

*Qrammatika* termini qədim yunan sözü olan *grammatikē* sözündən götürülmüşdür. *Gram* 'yazı, yazılmış', *tikē* isə 'incəsənət' mənasını verir və bütövlükdə *grammatikē* 'yazının incəsənəti' kimi ifadə edilir. Qədim Yunanıstanda və qədim Romada *grammatikē* və *qrammatika* terminləri bütövlükdə dilçilik elmini əhatə edən bir sahə kimi başa düşülsə də, erkən orta əsrlərdə qrammatika Latın dilinin öyrənilməsi kimi də qəbul edilirdi (2, s.79). Qrammatikaya bu cür yanaşma İngiltərədə XVI əsrin sonlarına qədər davam etdi. Qeyd edək ki, həmin dövrdə Latın dilinin qrammatikası məktəblərdə tədris olunan yeganə qrammatika idi.

Bəzi iddialara görə, qrammatika termini ilk dəfə Platonun əsərlərində işlənmişdir. Lakin həmin dövrdə qrammatika 'oxumaq, yazmaq, savad almaq' mənasını ifadə edirdi (4, s. 595-610; 7, s. 65).

Qrammatik kateqoriyaların tədqiqinə qədim yunan alimlərinin əsərlərində rast gəlmək olur. Qrammatikanın elm kimi əsası isə 2.500 il əvvəl qədim Yunanıstan və Hindistanda qoyulub. Yunan alimi Dionisi qrammatikanı "şeir və nəsr əsəri yazan ədiblərin təcrübi biliyi kimi izah edirdi.

N.Xomski və M.Heyl "The Sound Pattern of English" adlı kitablarında qrammatikanı belə təsvir edirlər: "Biz 'qrammatika' terminini sistemli ambiqyutivlik kimi işlədirik. Bir tərəfdən bu termin dilçilər tərəfindən yaradılan eksplisit nəzəriyyəni əks etdirir və danışanın kom-

petensiyasının təsviri kimi qəbul edilir. Digər tərəfdən isə o (qrammatika) kompetensiyanın özü kimi qəbul edilir (3, s.13).

V.Fromkin və R.Rodman isə qrammatikanı belə ifadə edirlər: " Dildə mövcud olan səslər və səs nümunələri, mənanın əsas vahidləri, məsələn sözlər və yeni cümlə qurmaq üçün sözlərin birləşdirilməsi qaydaları dilin qrammatikasını əhatə edir" (5, s.13).

Bu alimlərin qrammatikaya yanaşma tərzi N.Xomskininki ilə üst-üstə düşür, yəni onlar da qrammatikanı insanların linqvistik kompetensiyasının təqdimatı kimi qəbul edirlər. Ümumiyyətlə, dili başa düşmək üçün ilk növbədə dilin daxili qanunauyğunluqlarını, onda ifadə edilən şüurlu və şüursuz qaydalar ardıcıllığını, həmçinin gündəlik danışıq qaydalarını bilmək lazımdır.

V.Fromkin və R.Rodman qrammatikaya iki yanaşma təklif edirlər: birinci yanaşmada qrammatikadan istifadə edərək danışanların beyinlərində olanlar öyrənilir; ikinci yanaşmada isə beyin daxilində olan qrammatika təsvir olunur (5, s. 15). Təxminən 2000 il əvvəl yunan qrammatiki Dionisi qrammatikanı belə təsvir edirdi: lazım olan dildə danışmaq və yaxud lazım olan dil haqqında danışmaq. Hazırda biz bu iki mənanı fərqləndirməyə çalışmayacağıq, çünki dilçinin deskriptiv qrammatikası danışıqda ifadə olunan qrammatikanın formal cümlələrinin təsvirinə cəhddir.

Biz deyəndə ki, cümlə qrammatikdir, bu onu ifadə edir ki, bu cümlədə qrammatik qaydalar gözlənilmişdir. Məsələn, cümlənin mübtədası, xəbəri və s. vardır. Əksini deyəndə isə, yəni cümlə qrammatik deyil deyiriksə, bu onu ifadə edir ki, cümlənin quruluşunda nə isə bir çatışmazlıq mövcuddur.

Hər bir dilin qrammatikası mürəkkəbdir, məntiqidir və o, düşüncənin qeyri-müəyyən sayda olan cümlələrini ehtiva edə bilər.

İngilis dilinin qrammatikası haqqında ilk kitab 1585-ci ildə Vilyam Bullokar tərəfindən yazılmış "İngilis dili üçün yığcam qrammatika" kitabı (Brief Grammar for English) oldu. Lakin ən təsiredici və daha çox marağa səbəb olan kitab 1762-ci ildə dərc olunan və müəllifi R.Louz olan "İngilis dilinin qrammatikasına qısa giriş" (Short Introduction to English Grammar) adlı kitab idi. Bu kitabla ilk dəfə preskriptiv, yəni normativ qrammatika erası başladı. Preskriptiv qrammatikaya üstünlük verən alimin fikrincə, qrammatika dilin düzgün istifadə qaydaları haqqında elm kimi qəbul edilməlidir və onun məqsədi müəyyən dövrdəki aktual istifadəsini deyil, hansı istifadənin daha doğru olduğunu araşdırmaqdır.

İnsan bir çox nəzəriyyələrdə əsas tədqiqat obyekti hesab edilir. Antroposentrizm nəzəriyyəsi də insanı kainatın aparıcı qüvvəsi, hər bir şeyin başlanğıcı və üzərində heç bir digər varlığın hökmü olmayan obyekt kimi öyrənir. Bu dini-fəlsəfi düşüncə tərzi İntibah dövründə formalaşmış və nəinki Avropa, eyni zamanda Asiya təfəkkürünün formalaşmasında əsas vasitə hesab edilir.

İnsanın yaranmasının öyrənilməsi, insan dilinin inkişaf mərhələləri, onun danışığının öyrənilməsi, yazısı və oxusu, cümlə qurması və s. kimi amillər həmişə müzakirə və diqqət mərkəzi olmuşdur. Bir çox antropoloqlar insanı "alət hazırlayan insan" adlandırırlar, lakin F.Palmerin də iddia etdiyi kimi meymunlar da sadə alətlər hazırlaya bilirlər. Belə olan halda insanı digər canlılardan fərqləndirən nədir? Artıq təsdiq olunmuşdur ki, bu, insanın danışa bilmək qabiliyyəti ilə bağlıdır. Necə deyərlər: İnsan: "danışan heyvan", yaxud *homo loquens* "man with wisdom" ("ağlı, müdrikliyi olan insan" yaxud "müdrik insan") adlanır. Bu zaman diqqəti cəlb edən insanın işlətdiyi cümlələrin qrammatik quruluşudur. F.Palmer yazır: "Dilin insana məxsus olan xüsusiyyətini belə əhəmiyyətli edən şey onun qrammatikasıdır" (10, s.5). F.Y.Veysəlli yazır: "Bir çox heyvanlar fərqli səslər çıxara bilirlər. Məsələn, it hürür, at kişnəyir və s. Səs və məna arasındakı əsas əlaqə insanın səs vasitəsilə sözlərə verdiyi qrammatik

quruluşdur” (13, s.19). Bu səbəbdən də insan *homo grammaticus* ("grammatical man", human use of grammar, language) “qrammatik adam” adlanır (10, s.8).

Əsrlərdir ki, insanlar danışdıqları dilin inkişaf yollarını araşdırmaqla məşğuldurlar. Dilin “elmi”, yaxud obyektiv yolla öyrənilməsi də diqqəti cəlb etmişdir. Bəzi alimlərin qənaətinə görə, dilə ünsiyyət sistemi kimi yanaşılır və bu sistem digər canlıların ünsiyyət sistemi ilə müqayisə edilir. Məsələn, müəyyən olunmuşdur ki, gibbonlar ən azı doqquz fərqli səs çıxarırlar. Yaxud arıları nümunə göstərə bilərik. Arılar istiqaməti göstərmək üçün mürəkkəb rəqs etmə sisteminə malikdirlər. Daha sonra alimlər insan tərəfindən yaradılmış, icad edilmiş bəzi mexanika sistemlərinin ünsiyyət vasitəsi kimi düşündürücü qabiliyyətlərinin olduğunu irəli sürürlər (7, s. 65). Məsələn, işıqfor. Üç rəngli işarənin istiqamətverici əlaməti insanın düşünmək bacarığını əks etdirir. Bütün bu kimi xüsusiyyətlər dilin ünsiyyət sistemi əlamətlərilə bağlı hesab edilir. Bu sistemlərin hər biri dili anlamaq üçün insana yardım edir, onların hər birinin ünsiyyət növü kimi öz fərdi yolları, üsulları vardır.

Onlar arasındakı fərq əsasən qrammatikada müşahidə olunur. Təbii ki, gibbonların çıxardığı səsdə qrammatika var deyə bilmərik. Lakin onların yaradılışında mövcud olan bir sistemlilik vardır. Yaxud arıların elm tərəfindən hətta bəzi hallarda möcüzə hesab edilən ünsiyyət sistemində bir sistemlilik olduğu faktdır. Həmçinin, insanın hazırladığı və müəyyən ardıcıllıqla qurulan işıqforun əlamətlərində belə sistemlilik, əlaqəlilik müşahidə olunur. Müşahidə olunan bu qaydalı ünsiyyət ardıcıllığı bizə mənanı anlamağa istiqamət verir.

Qrammatikaya aid ilk əsər Paninin Sanskritin mövcud olan ən erkən qrammatikasından bəhs edən *Astādhyāyī* əsəri hesab edilir (11, s. 89). Həmin əsər sanskritin danışıq versiyasında 5 dil daşıyıcısının danışığını təsvir edir. Əminliklə deyə bilməsək də, güman edirik ki, Panini dilin quruluşunun müəyyən edilməsi, qorunması barədə çox araşdırma aparmışdır (2, s. 79). Dilin hind mədəniyyətində dini uyğunluğu da Paninin əsərində izah edilir. Panini dilin qrammatikasının insan danışığına gətirilməsində ruhun xidməti olduğunu iddia edirdi və bunu araşdırırdı. Amerikalı strukturalist L.Blumfild Paninin təsviri Sanskrit qrammatikasını təhlil etmişdir. L.Blumfild yazırdı: “İnsan ağlının ən böyük qabiliyyətini əks etdirir və ... dillərin təsviri üçün əla modeldir” (1, s.267).

Paninidən başqa, qrammatikanı öyrənən ilk alim kimi Donatusun adını çəkə bilərik. Donatus latın qrammatikası (*Ars Grammatica*) adlı ilk hesab edilən kitab yazmışdı. Həmin kitab iki hissəyə bölünür: Kiçik qrammatika (*Ars Minor-Shorter Grammar*) və Geniş qrammatika (*Ars Maior - Longer Grammar*). Kiçik qrammatikanın məqsədi hər bir nitq hissəsini müəyyən etmək, onların qruplarını sadalamaq və adlandırmaq, dilin flektiv sistemi daxilində fərdi sözləri müəyyən etmək məqsədi daşıyırdı. Asan yadda qalması üçün A.Donatus mətnləri suallar və cavablar şəklində tərtib edir və ierarxik olaraq hər səviyyəni təkrar-təkrar hazırlayırdı (12, s. 20).

Qrammatikanın tərifi fərqli şəkildə verilir. F.Palmer yazır: “Qrammatika düzgün qurulmuş cümlələrin sonsuz birliyini müəyyənləşdirən fiqur hesab olunur. Qrammatika həmçinin bu cümlələrin hər birinin bir, yaxud daha çox struktural təsvirini müəyyən edir” (10, s.9). O.Musayev yazır: “Qrammatikasız dil yoxdur və ola da bilməz. Qrammatika hər bir dilin onurğa sütunu, quruluş skeletidir. Dilin yerinə yetirdiyi başlıca funksiya, yəni kommunikasiya funksiyası ancaq qrammatikanın sayəsində gerçəkləşir, dil ünsiyyət vasitəsinə çevrilir və insanlara xidmət edir” (8, s.6). F.Y.Veysəlli yazır: “Ənənəvi qrammatika bir elm sahəsi olaraq çoxşaxəli və rəngarəng bilgilər tarixidir və bu tarixin dərin mərhələlərində hələ də açılmamış qapılar, ziddiyyətli məsələlər qalmışdır” (13, s.16).

Qrammatikanın təbiətini anlamaq üçün dilin üç xüsusiyyəti müəyyən edilmişdir. Dil mürəkkəbdir, məhsuldardır, ixtiyaridir (1, s.10).

1.Qrammatikanın mürəkkəb təbiətini tərcümə zamanı aydın müşahidə etmək olar. Məsələn, bir dildən digər dilə tərcümə edərkən qarşılaşdığımız çətinliklər bizə bunu düşünməyə əsas verir. Hələ elə bir üsul tapılmayıb ki, bir dildə olan materialı digər dilə olduğu kimi tərcümə etsin. Heç bir kompyuter proqramı bu qarışıqlığı həll edə bilmir. Doğrudur, tərcümə zamanı üzləşdiyimiz bu problemi kompyuterin üzərinə atırıq. Amma unutmayaq ki, kompyuteri yaradan insandır və bu da o anlama gəlir ki, insanın belə tərcüməni öhdəsinə götürə bildiyi bir üsul mövcud deyil. 2.İkinci xüsusiyyət dilin məhsuldarlığıdır. Hər bir insan gündəlik danışığında əvvəl eşitmədiyimiz çoxlu cümlələr işlədə bilər. Hər bir fərdə məxsus cümlələr vardır və işlədilən bu cümlələr hətta şəxsin özü tərəfindən belə ikinci dəfə eyni formada səslənmir, işlədilən cümlələr hər səsləndiyində yeni məna kəsb edə bilir. Bu da dilin məhsuldarlığını sübut edir. 3.Üçüncü xüsusiyyət dilin ixtiyariliyidir. Bu, səs və məna arasında birbaşa əlaqənin olmadığını göstərir. Bu da dillərin fərqliliyi faktına söykənir. Dil fərqlidirsə, o halda onun qrammatikası da fərqlidir. Bəzi alimlər iddia edirlər ki, "dilin dərinliyində" güclü oxşarlıq müşahidə etmək olar. Dillərin universal xüsusiyyətlərini burada xatırlamaq olar.

Hazırda əsas diqqət qrammatikanın tədrisinə yönəldilir. Qrammatikanın tədrisi çox zaman mübahisə doğurur. N. Nazari yazır ki, qrammatikanın tədrisinə çox zaman ayırmaq lazımdır. O, həmçinin ünsiyyət zamanı işlədilən qrammatikanın öyrədilməsini ön plana çəkir (9, s.156).

Dil öyrənmədə və öyrətmədə qrammatikaya üstünlük vermək zəruridir. Düzgün qrammatika həmin dilin sanki aynası hesab olunur. Düzgün ardıcıllıqlı cümlələr dilin təsvirini olduğu kimi anlamağa imkan verir.

## Ədəbiyyat


1. Bloomfield L. 'Review of Konkordanz Panini-Candra by B.Liebich', Language 5, 1929, pp.267-76.
2. Bhate S. and Kak S. 'Panini's grammar and computer science,' Annals of the Bhandarkar Oriental Research Institute, 72, 1993, pp. 79-94.
3. Chomsky N. Aspects of the Theory of Syntax, Cambridge, MA: MIT Press, 1965.
4. Demos R. 'Symposium : Plato's theory of language and Plato's philosophy of language'. *The Journal of Philosophy*, 61, 1964, pp.595-610.
5. Fromkin V., Rodman R. An Introduction to Language. USA: New York, 1993.
6. Krashen S. Principles and Practice in SLAcquisition (Vol.2). Oxford: Pergamon, 1982.
7. Law V. The History of Linguistics in Europe from Plato to 1600, Cambridge: Cambridge University Press, 2003, pp.65-80.
8. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 1998.
9. Nazari N. The effect of implicit and explicit grammar achievements in receptive and productive modes. Procedia-Social and Behavioral Sciences, 70, pp.156-162.
10. Palmer F.R. Grammar. Great Britain: Hazell Watson and Viney Ltd, 1971.
11. Rogers D.E. 'The influence of Panini on Leonard Bloomfield', Historiographia Linguistica, 14, 1987, pp. 89-138.
12. Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. New York, NY, 2011.
13. Veysəlli F.Y. German dilçiliyinə giriş. Bakı: "Təhsil" NPM, 2003.


N.Akhmedova

About grammar

Summary

The article searches the answer of *what is grammar*? It deals with the history of grammar beginning from ancient times. It states that it is necessary to define what the concepts express

before investigating their historical development and their structure.The article clarifies the meanings of the terms *gram* and *tikē*. It states that gram means writing, and *tikē* means art. So, grammar is understood as art of writing. The grammar was used to be the teaching way of Latin in middle ages though it was used as part of linguistics in ancient Greek and Rome. The new ways of approaching grammar have also been touched upon in the article.The definition of grammar has been given differently by many linguists. For instance, F.Palmer considers grammar as definite set of sentences. O.Musayev writes that there is not any language without grammar. According to this linguist, grammar is meant to be the main unit of every language. Communication is the main function of the language, and this function is only realized through grammar. The opinion of F.Veysalli has been touched upon in the article as well. Nowadays, the ways of teaching grammar are paid much attention to, and they need to be given much time to. Grammar is also meant to be useful in the communication process.

It is necessary to differentiate grammar in language learning as well as in language teaching.

**Key words:** grammar, art, writing, ancient, Greek, Latin

Н.Ахмедова

**О Грамматике**

**Резюме**

Статья исследует ответ -что такое грамматика? Она посвящена истории грамматики с древних времен. Она указывает, что необходимо определить, что выражают концепции прежде чем изучать ее историческое значение и структуру. Статья поясняет значения терминов gram и tikē. Она указывает, что *gram* означает письмо*, tikē* -искусство. Так, грамматика понимается как искусство письма. Грамматика использовалась как способ изучения Латинского языка в средние века, хотя она использовалась как часть языкознания в Древней Греции и Риме. В статье также затронуты новые подходы к грамматике. Определение грамматики было дано по-разному многими лингвистами. Например, Ф. Палмер рассматривает грамматику как определенный набор предложений. О. Мусаев пишет, что нет ни одного языка без грамматики. Согласно этому языковеду грамматика считается главной единицей каждого языка. Общение-главная функция языка и эта функция реализуется только через грамматику. Мнение Ф. Вейсялли было также затронуто в статье.

В настоящее время уделяется много внимания способам изучения грамматики и для этого требуется много времени. Грамматика также считается полезной в процессе коммуникации. Необходимо дифференцировать грамматику в изучении языка и в преподавании языка.

**Ключевые слова:** грамматика, искусство, письмо, древний, греческий, Латынь

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi:01.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Fəridə Allahverdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur.